Oktyabrın 5-də Təhsildə Yeni Çağırışlar IV Beynəlxalq Forumu keçirilib. Beynəlxalq forumda Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri Mətin Kərimli, millət vəkili Ceyhun Məmmədov, ali məktəblərin rektorları, elm və təhsil ictimaiyyətinin nümayəndələri, dünyanın tanınmış təhsil mütəxəssisləri, məktəb direktorları, müəllimlər və digər qonaqlar iştirak ediblər.

Forumda açılış nitqi ilə çıxış edən Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri Mətin Kərimli tədbirin "Heydər Əliyev İli"nə həsr olunduğunu diqqətə çatdırıb, ümummilli liderin təhsilə, müəllimə hər zaman yüksək diqqət, qayğı ilə yanaşdığını və bu siyasətin ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb. Mətin Kərimli bildirib ki, Ali Baş Komandanın rəhbərliyi ilə əldə olunmuş qələbə təhsilimiz üçün də yeni prioritet və ehtiyacları müəyyən edir. Hazırda işğaldan azad olunmuş ərazilərdə çoxsaylı təhsil müəssisələri tikilir, növbəti 3 ildə də həmin ərazilərdə yeni məktəblərin tikintisi və fəaliyyətə başlaması nəzərdə tutulur.

Məktəblərdə mənəvi-psixoloji mühitin yaxşılaşdırılması, tərbiyə işinin səmərəli təşkili və məktəb-ailə münasibətlərinin düzgün qurulmasının ən vacib istiqamətlər olduğunu diqqətə çatdıran Aparat rəhbəri çıxışının sonunda iştirakçıları Beynəlxalq Müəllimlər Günü münasibətilə təbrik edib və forumun işinə uğurlar arzulayıb.

Foruma evsahibliyi edən Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru Cəfər Cəfərov qonaqları salamlayaraq universitet – məktəb işbirliyi modelinin tətbiq olunmasının zəruriliyindən danışıb. Rektor rəhbəri olduğu universitetin əsas məqsədinin gələcəyin müəllimini müasir dünyanın çağırışlarına uyğun hazırlamaq olduğunu bildirib.

Türkiyənin sabiq milli təhsil naziri, "Maya" Məktəblər Şəbəkəsinin qurucusu Ziya Səlçuk "Rəqəmsallıqdan təbiiliyə: təhsildə balans yaratmaq" mövzusunda təqdimatla çıxış edib. Müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması, texnoloji yeniliklərin tədris mühitinə təsiri, ümumilikdə müəllim-şagird münasibətlərinin önəminə diqqət çəkən Ziya Səlçuk forumda iştirak edən müəllimlərə öz tövsiyələrini də verib.

XXI Əsr Beynəlxalq Təhsil və İnnovasiya Mərkəzinin akademik direktoru Turan Zəkəriyəyeva "Xoşbəxt şagird = xoşbəxt şəxsiyyət" adlı təqdimatında biliklərin artma tezliyi, süni intellekt, icraedici fəaliyyət bacarıqlarının erkən yaşlarda qazandırılması mövzularına toxunub.

Foruma onlayn qoşulan yazıçı və psixoloq Azra Kohen "Zəka menyusu" adlı təqdimatla çıxış edib, uşaqlara öyrənməyi öyrətməyin vacibliyindən danışıb.

Sonra çıxış edən Harvard Universitetinin professoru, Qlobal Təhsil İnnovasiyaları Təşəbbüsünün direktoru Fernando Reimers Dayanıqlı İnkişaf Məqsədlərinin bir sıra dərs mövzuları içərisində tədrisinin əhəmiyyətini qeyd edib, şagirdlərin təcrübəəsaslı biliyə yiyələnməsinin önəmini diqqətə çatdırıb.

Daha sonra İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) baş katibinin təhsil siyasəti üzrə xüsusi müşaviri, təhsil və bacarıqlar üzrə direktoru Andreas Şleyxer "Real dünyanın təhsildən tələbləri" mövzusunda təqdimatla çıxış edib. 10-15 yaşlı uşaqlar arasında aparılan yaradıcılıq və rəqəmsal bacarıqlarla bağlı tədqiqatın nəticələrinə dair statistika təqdim edən Andreas Şleyxer analitik, koqnitiv və metakoqnitiv, sosial-emosional bacarıqların əhəmiyyətindən danışıb.

Forum çərçivəsində iştirakçıların sualları cavablandırılıb.

Qeyd edək ki, forumun əsas məqsədi təhsildə yeni çağırışları müzakirə etmək, müasir dövrün təhsil tələblərini nəzərdən keçirmək olub. Beynəlxalq forum Elm və Təhsil Nazirliyi, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT), Təhsilin İnkişafı Fondu, "T – Network" təhsil işçilərinin təcrübə və kommunikasiya platforması, Təhsil İnstitutu, Azərbaycan Dövlət Pedaqoji Universitetinin təşkilatçılığı ilə hibrid formatda baş tutub.